UOT 76

*Aysel Məmmədəliyeva*
*Azərbaycan Dövlət Rəssamlıq*
*Akademiyasının dissertantı*
*AZ1029, Bakı, Heydər Əliyev pr.58*
*E-mail*: life_continues_91@mail.ru

# «AZƏRBAYCAN QƏDİM MƏDƏNİYYƏT ÖLKƏSİDİR» SİLSİLƏSİNİN MÜASİR OBRAZLARI

**Xülasə:** Məqalədə xalq rəssamı Elmira Şahtaxtinskayanın müxtəlif dövrlərədə yaratdığı "Azərbaycan qədim mədəniyyət ölkəsidir" silsiləsinin müasir obrazların bədii təhlili öz əksini tapmışıdır. Elmira Şahtaxtinskayanın bütün plakatlarında dəqiq cizgilər, məqsəd yönlü kompozisiya, ifadəli rənglər və şriftlər əsərlərin estetik təsirini daha da artırmışdır. Mədəni-maarif baxımından aktual mövzuda çəkilmiş bütün plakatlarda da rəssam lazımı rəssamlıq mədəniyyətinə malik sənətkarlıq kimi çıxış etmişdir. O, aktuallığı və mükəmməl bədii formalarıilə fərqlənən plakatlarında qrafik sənətin ən yaxşı ənənələrindən ustalıqla yararlanmağa çalışmışdır.

**Açar sözlər:** Rəssam, plakat, rəng, təsvir, obraz, bəstəkar, müasir.

Dəzgah qrafikası, akvarel və quaş texnikasında yaratdığı gözəl əsərləri ilə yanaşı öz məzmunu ilə maraq çəkən çoxsaylı plakatların da müəllifi olan istedadlı rəssam Elmira Şahtaxtinskayanın bu qəbildən yaradıcılığına nəzər salarkən onun müasir obrazlara həsr olunmuş əsərləri onların dərin məzmununu açıqlayan kompozisiya quruluşu ilə yaddaşlarda qalmışdır.

Ümumiyyətlə, rəssamın fəaliyyət göstərdiyi sovet məkanında plakat janrı bütün ölkəni öz ağuşuna almışdır. Qrafikanın ən fəal və çevik janrı olan plakat, sovet dövründə ictimai fikrin ifadəçisi, dövrün problemlərinə obyektiv mövqedən yanaşan, ölkəmizdə vətəndaş cəmiyyətinin, kommunist şüarlarının və partiyalığın bərqərar olmasına çalışan bədii yaradıcılıq növü kimi inkişaf etmişdir. Plakatların təsvir dilində lakonik və assosiativ obrazlara meyl güclənilir, milli ənənəvi mövzular ilə yanaşı sovet ideologiyasının şüarları və onların liderlərinin

obrazlarına müraciət edilir, obrazlı təfəkkür və fəlsəfi ümumiləşdirmə prinsipləri müstəsna əhəmiyyət kəsb edir. Plakatın həyatın bütün sahələrinə müdaxilə edən gücünü onun məzmunundan irəli gələrək bir növ elan etmək, bəyan etmək, tanıtmaq məqsədini güdməsini E.Şahtaxtinskaya dövrün müasir simalarının xalqa bir daha tanıtması, təbliğ etməsi yolunda atılan önəmli addımlar idi. Burada mədəni-maarif plakatı kimi məmulatı geniş kütləyə çatdırmaqda sənətkar ən uyğun kompozisiya vasitələrini seçirdi. Çünki plakat elan vermək və nümayiş etdirməklə yanaşı inandırır, cəlb edir, heyran edir, təbliğ edir.

Belə nümunələr sırasına daxil olan 1974-cü ildə həyata keçirilmiş plakatı xüsusi olaraq misal çəkmək olar. Əsər Azərbaycanın görkəmli rəssamı Səttar Bəhlulzadənin xatirəsinə həsr edilmişdir. Olduqca ciddi və eyni zamanda sənətkarın daxili dünyasından doğan lirizmin tərənnümü nümunənin mahiyyətini açıqlayır. Rəssamın ifadə etdiyi təsvirdə obrazın profildən görünüşü dahainandırıcıdır. Burada hərarətli ləkənin yaratdığı portret soyuq fonda daha yüksək bədii keyfiyyətləri ilə diqqəti çəkir. Bu dövrün bir çox plakatçı rəssamlarının yaradıcılığına məxsus səciyyəvi xüsusiyyət onların nəzər nöqtələrinin çoxluğunu, miqyas müxtəlifliyini, ön plandan dərinliyə gözlənilməz sıçrayışları xoşlayırlar, gerçəkliyini nağıl fantaziyası ilə, analoji təzahürlərlə yanaşı birbaşa nümayiş etdirməyə üstünlük verirdilərlər. Qeyd edilmiş nümunədə də Səttar yaradıcılığına məxsus əsərlərin soyuq kölgəli təsvirləri önündə onun qara ştrixlərlə həll edilmiş profil təsvirinin birbaşa məzmun açıqlaması ilk olaraq tamaşaçısının diqqəti cəlb edir. Mavi, sarı, yaşıl, narıncı – bir sözlə zərif rənglərin harmoniyasında yaradılmış “Kəpəzin göz yaşları” əsərinin açıq qəhvəyi tonlarla aralıqlara atılmış ağ tonal ləkələrlə kölgəli tərənnümü hər şeydən öncə rəssamın yaradıcı dünyasına məxsus fərdiliyi nümayiş etdirir. Bu dünyanın tək sakini olan Səttar Bəhlulzadənin yaradıcılığının önündə dayanmış özünəməxsus simasını rəssam olduqca təsirli və canlı formalarla tamaşaçısına təqdim etmişdir. E.Şahtaxtinskaya saçları arxaya dağılmış obrazın uzaqlara baxan nəzərlərini elə formada tərənnüm etmişdir ki, sanki o, plakatın sərhədini belə “yararaq aşaraq”, zamanın və mühitin uzanan nəhayətsizliyinə dikilmişdir. Uyğun rəng və şrift seçimi isə plakatın mahiyyətinin təsdiqlənmiş formasını tam şəkildə tamaşaçısına təqdim edir. Ümumiyyətlə, sözlər plakatın mənasını açıqlamaqla yanaşı onun qrafik kompozisiyasında iştirak edir. Bu mənada plakatda mətnlə rəsmin təsviri həm tematik, həm də optik olmuşdur ki, bu da eyni zamanda plakatı həm oxumağa, həm də seyr etməyə imkan yaradır.

Qeyd edilən bu xüsusiyyəti təbii ki, rəssamın müasir simalara həsr edilmiş plakat nümunələrində də görmək mümkündür. Belə əsərlərdən Azərbaycanın dünya şöhrətli, məşhur musiqiçilərinin xatirəsinə, yubiley tədbirlərinə həsr edilmiş plakatlar təqdirəlayiqdir. 1975-ci ildə böyük Azərbaycanın musiqişünas-alimi Üzeyir Hacıbəyovun 90 illiyinə həsr edilmiş plakatda rəssam onun uğurlu kompozisiya nümunəsini həyata keçirməyə nail olmuşdur. Möhtəşəm musiqi əsərinin ahəngdar notlarının tərənnümünü rəssam qara fon üzərində qırmızı, sarı, narıncı tonların axarlı çalarlarını böyük ustalıqla yaratmışdır. Dövrün ümumi vətən anlayışına uyğun olaraq altyazıda verilmiş “Üzeyir Hacıbəyov. Klassik Sovet musiqisi” sözləri əsərin optik anlayışı ilə yanaşı onun həm məzmunun oxunmasını

təmin etmişdir. Bu yazıların şrift seçimi də notları xatırladan qarışıq formada və yuxarı hissəni rəng həllinə uyğun həyata keçirilmişdir.  [2. S. 5]

Plakatın yuxarı hissəsindəki əlvanlıq aşağıya doğru tündləşərək sabit rəng həllinə girməyə başlayır ki, burada sözlərin aydın oxunası, mürəkkəb şrift seçiminin qarışıqlıq yaratmadan səlis qavranılması məqsədəuyğun bədii həllə tabe edilmişdir. Plakatın mahiyyətini açıqlayan mərkəzdə və iri planda məşhur musiqiçinin ağ xətlərdən dekorativ təsviri Səttar Bəhlulzadəyə həsr edilmiş əsərdə olduğu kimi profildən verilmişdir. Bəstəkarın önə deyil, yan tərəfdən uzaqlara zillənmiş nəzərləri həm də onun müdrik dünyasını, dərin mənəviyyatını açıqlayır. Dekorativ planda həll edilmiş portretin simasında onun eynəkli gözləri, sifət cizgiləri, bir qədər seyrəkləşmiş ağ sağları olduqca canlıdır. Sadəcə portret təsvirlə rəssam obrazın simasındakı xarakterik açılışı böyük məharətlə tamamlamışdır. Bunu sanki havada dağılmış notların arasından boylanan musiqiçinin ciddi, müdrik tərənnümü xüsusilə təsdiqləyir. Elmira Şahtaxtinskayanın plakatlarında eyni üslub xüsusiyyətləri mövcud olsa da fərqli kompozisiya quruluşu, əsərin mahiyyətini açıqlayan forma və məzmun hər bir plakatın fərdiliyini təqdim edir. Fikrət Əmirovun 60 illiyik yubileyinə həsr edilmiş əsərdə ifadə edilmiş məzmun da deyilənlərə bir misaldır. Bundan əvvəl qeyd edilmiş plakatdan fərqli olaraq əsasən göy rəngin fonunda Azərbaycan konsert janrının ilk nümunələrini yaratmış sənətkarın təsviri də tam profildən verilmişdir. Əsərin yuxarı hissəsində topa ağ buludların çiçək kimi açması, bir küncdə isə orkestrə əlavə edilmiş tarzənin sanki açıq pəncərədən verilmiş təsviri əsərin dərinə dayanan məzmununa açıqlıq gətirir. Göy rəngin içində musiqiçinin real portret təsvirinin aşağı hissəsində boyalar elə şəkildə dolaşır ki, onun boyun hissəsindəki ağ papyonun sadəcə kiçik təsviri görünür. Bu cür bədii həll əsərdəki zərif lirizmi xüsusilə gücləndirir. Fikrət Əmirovun öndən seyrəkləşmiş geniş alnı, düşüncəli siması ağ buludların altında xüsusi harmoniya yaradır.

Məqsədin açıqlanması məqsədilə plakatın aşağı hissəsində əsas hissə ilə təzad yaradan açıq qəhvəyi rəngin köhnə vərəqləri xatırladan görünüşünün üzərində verilmiş notlar və həmin istiqmətdə uyğun kiril şriftləri ilə bəstəkarın adının yazılması yaradıcılıq nümunəsinə bütövlük bəxş etmişdir.

Möhtəşəm musiqi dünyasının çılğın notlarını rəssam bu dəfə hər iki əsərdə digər plakatlardan fərqli olaraq notların, məqsədli elementlərin tərənnümü ilə deyil, təbiət elementlərinin dramatik formaları ilə izah etmişdir. Hər iki plakatda obrazlar profildən sakit görkəmləri ilə dənizin cılğın sularının və yaxud topa qarışıq buludların arasından müdrik görkəmləri ilə təzad yaradan kompozisiya quruluşunda təqdim edilmişlər. Bununla rəssam simfonik orkestrin möhtəşəmliyini yaradan görkəmli şəxsiyyətlərin sənət dünyasının xarakterik açılışını vermişdir. İdeal musiqi sənəti və onun təsviri sənətdə əksinin layiqli tərənnümü öz məqsədli izahını rəssamın hər iki kompozisiyasında uğurla tapmışdır. 100x70 sm. ölçüsündə olan birinci plakat qəhvəyi və ağ tonlarla həll edilmidir. Bəstəkarın eynəkli müdrik siması topa buludların qarışıqlığı arasında sanki onların bir parçası kimi təqdim edilir. Eyni ölçülü ikici əsərdə isə Arif Məlikovun qayalıqlara çırpınaraq geridönənə dalğaların önündə verilmiş bir qədər kədərli, qayğılı obrazı tamaşaçısının diqqətini cəlb edir. Musiqiçilərə həsr edilmiş plakatlar arasında bəstəkar, dirijor,

folklorşünas, ictimai xadim, eləcə də Azərbaycan musiqisində Avropa stilində ilk operanın müəllifi olan Qara Qarayevin 100 illik yubileyinə həsr etdiyi əsər digərlərindən əsasən kompozisiya quruluşuna görə fərqlənir.

Daş fakturası effektini xatırladan arxa fon üzərində verilmiş notlar və uyğun şriftlərin önündə dirijorun musiqinin mifa prosesinə başçılıq etdiyi anların tərənnümü ön hissədən verilmişdir. Qara pencək, ağ köynək, səmimi və təvazökar obrazı daha da möhtəşəm formalarla əks etdirilmşişdir. Bu forma digər plakatlardan onu fərqləndirən əsas xüsusiyyət olsa da, bütün əsərlərdəki əsas olanı önə çəkmək bacarığı E.Şahtaxtinskayanın əsas üslub xüsusiyyətidir. [5. S. 34]

Bu xüsusiyyəti rəssamın Azərbaycanın ilk xalq şairi Səməd Vurğunun 70 illiyinə, dahi dramaturq Hüseyn Cavidin 100 illiyinə, akademik Mir-Qasımovun 100 illiyinə həsr edilmiş plakatlarda da aydın şəkildə görmək mümkündür.

Elmira Şahtaxtinskayanın bütün plakatlarında dəqiq cizgilər, məqsəd yönlü kompozisiya, ifadəli rənglər və şriftlər əsərlərin estetik təsirini daha da artırmışdır. Mədəni-maarif baxımından aktual mövzuda çəkilmiş bütün plakatlarda da rəssam lazımı rəssamlıq mədəniyyətinə malik sənətkarlıq kimi çıxış etmişdir. O, aktuallığı və mükəmməl bədii formaları ilə fərqlənən plakatlarında qrafik sənətin ən yaxşı ənənələrindən ustalıqla yararlanmağa çalışmışdır.

**Ədəbiyyat:**


1. Qacar G. Elmira Şahtaxtinskaya. Bakı: XXI Yeni Nəşrlər Evi, 2001. S. 173.
2. Kərim Kərimov. Şahtaxtinskaya Elmira: kataloq / Bakı: 1989.
3. Həbibov N. Rəssamın yeni obrazları // Ədəbiyyat və incəsənət. 1976. 3 aprel s.2
4. Гусейнов Ю. Поэтическим языком плаката. // Газ. «Бакинский рабочий», 2 авг. 1989.
5. Аскерова Х. Плакатное искусство Эльмиры Шахтахтинской // Международный музыкальный культурологический журнал, http://harmony.musigi-dunya.az.


.


**Айсель Мамедалиева**


**Современные образы из серии «Азербайджан страна древней культуры»**

**Резюме**


В статье был проведен художественный анализ современных образов, созданных в разные периоды из серии «Азербайджан страна древней культуры». Во всех плакатах Эльмиры Шахтахтинской точные контуры, выразительные цвета и шрифты, целеустремленные композиции еще более усилили эстетический эффект работ. Во всех плакатах с культурно-просветительской тематикой художник выступил с высоким уровнем художественной культуры. В плакатах отличающихся актуальностью и

совершенностью художественных форм, художник постарался использоватьсамые передовые традиции графического искусства
**Ключевые слова:** художник, плакат, цвет, выражение, образ,композитор, современный

**Aysel Mammadaliyeva**
**Modern images from the series**
**“Azerbaijan is a country of ancient culture”Summary**

The article is devoted to an artistic analysis of modern images created in different periods from the series “Azerbaijan is a country of ancient culture”. In all the posters of Elmira Shahtahtinskaya, the exact contours, expressive colors and fonts, purposeful compositions further enhanced the aesthetic effect of the works.In all the posters with cultural and educational themes the artist made a high level of artistic culture. In posters of different art forms with different relevance and perfection, the artist tried to use the most advanced traditions of graphic art.
**Keywords:** artist, poster, color, expression, image, composer, modern

**Məqalənin redaksiyaya daxil olma tarixi: 29.05.2018 Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 05.06.2018Məqalənin çapa qəbul olunma tarixi: 20.06.2018**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: sənətşünaslıq üzrəfəlsəfə doktoru, dosent Afət Aslanova**
**ADMİU-nun Elmi Şurasının 06 iyul 2018-ci il, 09 saylı qərarı ilə çap olunur**